İş № 2(008)-3222/2020

Azərbaycan Respublikası adından
Q ə t n a m ə

01 aprel 2020-ci il Bakı şəhəri

Bakı Şəhəri Sabunçu Rayon Məhkəməsi

Hakim Talıbov Samir Şahin oğlunun sədrliyi,
Cılqamlı Aygün Rayiq qızının katibliyi,
Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin etibarnamə üzrə nümayəndəsi (həkim məruzəçi) İbrahimov Fəxrəddin Əhlulla oğlunun,
Barəsində psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizə verilmiş Hümmətov Aqil Valeh oğlunun,
Barəsində psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizə verilmiş Hümmətov Aqil Valeh oğlunun qanuni nümayəndəsi Sabunçu RİH başçısı yanında Qəyyumluq və Himayəçilik Komissiyasının məsul katibi Hünbətova Səbahət Şahid qızının iştirakı ilə,
Hümmətov Aqil Valeh oğlunun psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasının baş həkimi Ağahəsən Rəsulovun ərizəsi üzrə işə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasının inzibati binasında açıq məhkəmə iclasında baxaraq, məhkəmə

MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin baş həkimi Ağahəsən Rəsulov ərizə ilə məhkəməyə müraciət edərək Hümmətov Aqil Valeh oğlunun psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsinə dair qətnamə qəbul edilməsini xahiş etmişdir.

Ərizə onunla əsaslandırılır ki, 1983-cü il təvəllüdlü Bakı şəhəri, Sabunçu rayonu, Natəvan küçəsi, ev 37 ünvanda qeydiyyatda olan və Zirə qəsəbəsi, Bağ massivində yaşayan yaşayan Hümmətov Aqil Valeh oğlu 30.03.2020-ci il tarixdə Xəzər Rayon Polis idarəsinin 1-ci Polis şöbəsinin 056-4422 saylı, 30.03.2020-ci il tarixli məktubu əsasında təxirəsalınmaz surətdə Respublika Psixiatriya Xəstəxanasına qəbul olunmuşdur. Həkim Məsləhət Komissiyası "Psixiatriya Yardımı Haqqında" Azərbaycan Respublikası Qanunun 11-ci maddəsinin 1.3-cü maddəsinə əsasən xəstə Hümmətov Aqil Valeh oğlunun psixi vəziyyətini nəzərə alaraq, onun psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə qətnamə qəbul edilməsini xahiş edir.

Məhkəmə iclasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin etibarnamə üzrə nümayəndəsi (həkim məruzəçi) İbrahimov Fəxrəddin Əhlulla oğlu ərizəni və məhkəməyə təqdim olunmuş Respublika Psixiatriya Xəstəxanasının Həkim Məsləhət Komissiyasının rəyini müdafiə edərək göstərdi ki, Hümmətov Aqil Valeh oğlunun irsiyyəti ruhi-əsəb xəstəlikləri ilə ağırlaşmamışdı. İlkin inkişafı adi keçib. Orta təhsillidir. Ailəlidir, 3 övladı var. Hal-hazırda Zirə bələdiyyəsində fəhlə işləyir. Kəllə-beyin travması almasını inkar edir. Vərəm və keçirilmiş dəri-zöhrəvi xəstəlikləri inkar edir. Xəstənin deməsinə görə 2019-cu il martın 14-də Binəqədi Rayon İnzibati Həbsxanada "polisə müqavimət göstərməsi ilə əlaqədar" 30 günlük həbs müddəti çəkib. 20

ci ilin may ayından facebookda Aqil Hümmətov adlı sayt açıb və uşaq pulunun verilməməsi, Respublikada olan ağır sosial vəziyyətdən, bahalaşma ilə əlaqədar çıxışlar edib. 1 ay bundan öncə 102 xidmətinə zəng edərək polislərə xəbər vermişdir ki, "mən İlham Əliyevə müraciət haqqında danışacam, gəlin məni aparın". 31.03.2020-cu il tarixdə Hümmətov Aqil Valeh oğlunun Həkim Məsləhət Komissiyası tərəfindən müayinə olunub. HMK-nın baxışı zamanı xəstənin psixi vəziyyəti: Düşüncəsi kobud pozulmamışdır. Bələdliyi qorunur. Zahirən gərgindir. Xəstəxanaya gəlməsinə narazılıq bildirir. Özünü xəstə hesab etmir. Ünsiyyətə həvəslə qoşulur, çoxsözlüdür. Xəstə facebookda sayt açdığını, dövlətdən sosial yardım ala bilməməsini, qazancının xərclərini ödəmədiyini, İlham Əliyevə müraciət edəcəyini bildirir. Bunları nəzərə alaraq, Hümmətov Aqil Valeh oğlunun qeyri-könüllü müayinə və müalicə üçün yerləşdirilməsini məhkəmənin mülahizəsinə buraxdığını bildirdi.

Məhkəmə iclasında barəsində psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizə verilmiş Hümmətov Aqil Valeh oğlunun qanuni nümayəndəsi Sabunçu RİH başçısı yanında Qəyyumluq və Himayəçilik Komissiyasının məsul katibi Hünbətova Səbahət Şahid qızıərizə ilə razılaşmayaraq izahatında bildirdi ki, Hümmətov Aqil Valeh oğlu ilə edilən söhbətlər nəticəsində onun psixi xəstə olması, özü və ətrafdakılar üçün heç bir təhlükəli yaratması müəyyən olunmur. Onun şikayəti maddi imkansızlıq ilə əlaqəlidir. Buna görə də onun psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizənin rədd olunması barədə qətnamə qəbul edilməsini xahiş etdi.

Barəsində psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizə verilmiş Hümmətov Aqil Valeh oğlu məhkəmədə verdiyi izahatında ərizə ilə razılaşmayaraq bildirdi ki, Onun 38 yaşı var. O, psixi xəstə deyil, özünü normal sağlam insan kimi hiss edir. Xəzər rayonunun Zirə Bələdiyyəsində fəhlə işləyir. Himayəsində 3 uşağı vardır. Onun maddi vəziyyəti çox çətindir. İnternet üzərindən dəfələrlə çıxışlar edərək prezidentdən uşaq pulu tələb etmiş, hal-hazırda da ona uşaq pulu və digər ödənişlərin verilməsini tələb edir. Onun Bakı şəhəri Xəzər Rayon Polisİdarəsinin 1-ci Polis şöbəsi təfərindən Psixatriya Xəstəxanasına yerləşdirilməsi qanunsuzdur. Onun Psixatriya Xəstəxanasına yerləşdirilməsi üçün heç bir əsas yoxdur. Ona görə də, ərizənin təmin edilməməsini xahiş etdi.

Məhkəmə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin nümayəndəsinin, barəsində psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə ərizə verilmiş Hümmətov Aqil Valeh oğlunun və Sabunçu RİH başçısı yanında Qəyyumluq və Himayəçilik Komissiyasının məsul katibi Hünbətova Səbahət Şahid qızının izahatlarını dinləyib, iş üzrə toplanmış sübutları araşdırıb, onları qiymətləndirərək, hesab edir ki, ərizə təmin edilməməlidir.

Belə ki, Məhkəməyə təqdim olunmuş Respublika Psixiatriya Xəstəxanasının 01 aprel 2020-ci il tarixli Hümmətov Aqil Valeh oğlunun psixiatrik müayinəsinin rəyindən görünür ki, Psixiatrik müayinəni aşağıdakı tərkibdə HMK-nın üzvləri tərəfindən aparılmışdır. Komissiyanın sədri: AR SN RPX-nın baş direktoru Ağahəsən Rəsulov, komissiyanın üzvləri: AR SN RPX-nın baş direktorun müavini Sevinc Hüseynova, şöbə müdiri Rəna İsmayılova; Həkim məruzəçi: Fəxrəddin İbrahimov. Xəstənin tibbi sənədləri və anamestik məlumatlarından aşağıda göstərilənlər müəyyən edilir: İrsiyyəti ruhi-əsəb xəstəlikləri ilə ağırlaşmayıb. İlkin inkişafı adi keçib. Orta təhsillidir. Ailəlidir, 3 övladı var. Hal-hazırda Zirə bələdiyyəsində fəhlə işləyir. Kəllə-beyin travması almasını inkar edir. Vərəm və keçirilmiş dəri-zöhrəvi xəstəlikləri inkar edir. Xəstənin deməsinə görə 2019-cu il martın 14-də Binəqədi Rayon İnzibati Həbsxanada "polisə müqavimət göstərməsi ilə əlaqədar" 30 günlük həbs müddəti çəkib. 2017-ci ilin may ayından facebookda Aqil Hümmətov adlı sayt açıb və uşaq pulunun verilməməsi, Respublikada olan ağır sosial vəziyyətdən, bahalaşma ilə əlaqədar çıxışlar edib. 1 ay bundan öncə 102 xidmətinə zəng edərək polislərə xəbər verib ki, "mən İlham Əliyevə müraciət haqqında danışacam, gəlin məni aparın". 31.03.2020-cu il tarixdə Hümmətov Aqil Valeh oğlunun Həkim Məsləhət Komissiyası tərəfindən müayinə olunub. HMK-nın baxışı zamanı xəstənin psixi vəziyyəti: Düşüncəsi kobud pozulmayıb. Bələdliyi qorunur. Zahirən gərgindir. Xəstəxanaya gəlməsinə narazılıq bildirir. Özünü xəstə hesab etmir. Ünsiyyətə həvəslə qoşulur, çoxsözlüdür. Xəstə facebookda sayt açdığını, dövlətdən sosial yardım ala bilməməsini, qazancının xərclərini

ödəmədiyini, İlham Əliyevə müraciət edəcəyini bildirir. İfadələri detalizasiyalıdır. Fikirləri hissəvi korreksiya olunur. Yuxusu pozğundur. Öz psixi vəziyyətinə qarşı tənqidi münasibəti formaldır. Yekun hissə: Yuxarıda göstərilənləri nəzərə alaraq, Həkim Məsləhət Komissiyası qərara gəlir ki, Hümmətov Aqil Valeh oğlunun "Şəxsiyyətin paranoyal tip pozuntusu" diaqnozlu xəstəliyindən əziyyət çəkdiyindən və hal-hazırki psixi vəziyyətini nəzərə alaraq Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 11.1.3. maddəsinə uyğun olaarq yalnız stasionar şəraitdə qeyri-könüllü müayinə və müalicəsi üçün məhkəməyə müraciət edilməsi bildirilmişdir.

İşdə olan Bakı şəhəri Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis şöbəsinin 30.03.2020-ci il tarixli məktubundan görünür ki, Xəzər rayonu, Zirə qəsəbəsi yeni sahə fərdi evdə yaşayan 04.05.1983- cü il təvəllüdlü Hümmətov Aqil Valeh oğlu öz hərəkətlərinə nəzarət edə bilmədiyindən, ətrafda yaşayan sakinlərə əxlaqsız hərəkətlər etdiyinə görə müalicə olunmaq məqsdə ilə Əliyeva Tamara İbadulla qızının, Əmirov Vüqar Əhməd oğlunun, Əzizov Əlimurad Rafiq oğlunun ərizələri Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" na göndərilmişdir.

İşdə olan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsi tərəfindən verilmiş Tibbi kartoçkadan görünür ki, Hümmətov Aqil Valeh oğlu 30 mart 2020-ci ildə müayinədən keçmiş, ona xasiyyətin parayonal tip pozuntusu diaqnozu qoyulmuşdur.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən psixi pozuntunun xarakteri müayinənin, müalicənin, şəxsin saxlanmasının və onun üzərində müşahidənin yalnız psixiatriya stasionarında həyata keçirilməsini tələb edərsə, psixiatriya stasionarında qeyri-könüllü müalicə aşağıdakı əsaslar olduqda təyin edilir:

11.1.1. psixi pozuntusu olan şəxsin bilavasitə özü və (və ya) ətrafdakılar üçün təhlükəli olması;

11.1.2. şəxsin psixi pozuntu nəticəsində acizliyi, yəni əsas həyatı tələbatını müstəqil təmin etmək qabiliyyətinin olmaması;

11.1.3. ağır psixi pozuntusu olan şəxsə stasionar yardımın göstərilməməsinin onun sağlamlığına qarşısıalınmaz zərər yetirməsi və müalicəsini mümkünsüz etməsi.

Həmin Qanunun 18.2-ci maddəsinə əsasən şəxsin psixi pozuntu nəticəsində öz əsas həyati tələbatnı müstəqil ödəməyə qadir olmadığı və ya təxirəsalınmaz psixiatriya yardımı göstərilməməsinin onun həyatı və sağlamlığı üçün təhlükə törədə biləcəyi hallarda şəxsin özü və ya qanuni nümayəndəsi psixiatriya müayinəsinə razılıq verməzsə, müayinə barədə qərarı həkim-psixiatr komissiyasının rəyi əsasında məhkəmə qəbul edir.

Həmin Qanunun 22.1-ci maddəsinə əsasən psixiatriya stasionarına yerləşdirmək üçün əsas şəxsdə psixi pozuntunun olması və stasionar şəraitində müayinə və müalicə aparılması haqqında həkim-psixiatrın (həkim-psixiatr komissiyasının) rəyi və ya məhkəmənin qətnaməsidir.

Qanunvericiliyin tələbinə görə, şəxsin bilavasitə özü və ya ətrafdakılar üçün təhlükəli olması, şəxsin psixi pozuntu nəticəsində acizliyi, yəni əsas həyatı tələbatını müstəqil təmin etmək qabiliyyətinin olmaması, şəxsə psixiatriya yardımının göstərilmədiyi halda onun psixi vəziyyətinin pisləşməsi və s. hallar olduqda yalnız stasionar şəraitdə qeyri-könüllü müayinə və müalicəsini davam etdirilməlidir.

Məhkəmə hesab edir ki, qanunvericilikdə göstərilən hallarla əlaqədar Hümmətov Aqil Valeh oğlunun stasionar şəraitdə qeyri-könüllü müayinə və müalicəsini davam etdirilməsinə səbəb olan hallar rəydə tam əsaslandırılmışdır.

Azərbaycan Respublikası Mülki Prossessual Məcəlləsinin 335.1-ci maddəsinə əsasən şəxsin psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsi barədə ərizə ailə üzvləri, qəyyum və ya himayəçi, habelə psixiatriya müəssisəsinin rəhbəri tərəfindən şəxsin yaşadığı yer üzrə və ya müəssisənin yerləşdiyi yer üzrə məhkəməyə təqdim olunur.

Həmin Məcəllənin 335.2-ci maddəsinə əsasən ərizədə şəxsin psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsinə aid qanunla nəzərdə tutulmuş əsaslar göstərilməlidir.

Həmin Məcəllənin 338.1-ci maddəsinə əsasən, işə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və yaxud təmin edilməsi barədə qətnamə qəbul edir.

Beləliklə, məhkəmə iş üzrə toplanmış sübutlar məcmusuna qiymət verərək belə nəticəyə gəlir ki, məhkəməyə daxil olmuş ərizə əsaslandırılmadığından ərizə təmin edilməli və Hümmətov Aqil Valeh oğlunun hərəkətləri özü və (və ya) ətrafdakılar üçün təhlükəli olması, hərəkətlərində hər hansı psixi pozuntu nəticəsində acizliyi, yəni əsas həyatı tələbatını müstəqil təmin etmək qabiliyyətinin olmaması, ağır psixi pozuntusu, onun sağlamlığına qarşısıalınmaz zərər yetirməsi və s. halları təsdiq edən əsaslandırılmış rəy və yaxud hər hansı mötəbər sübut məhkəməyə təqdim edilmədiyindən Hümmətov Aqil Valeh oğlu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nazirliyinin Respublika Psixiatriya Xəstəxanasına qeyri-könüllü yerləşdirilməməsi barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin baş həkimi Ağahəsən Rəsulovun ərizəsi təmin edilməməlidir.

Qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 216-220-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**QƏT ETDİ:**

Hümmətov Aqil Valeh oğlunun psixiatriya stasionarında qeyri-könüllü yerləşdirilməsi barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Psixiatriya Xəstəxanasının" Publik hüquqi şəxsin baş həkimi Ağahəsən Rəsulovun ərizəsi təmin edilməsin.

Qətnamədən 1 ay müddətində Sabunçu Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

**Sədrlik edən:** **Samir Talıbov**

**Əsli ilə düzdür**

**Hakim:** **Samir Talıbov**